**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi,

hər iki ölkə arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi ilə bağlı birgə səylərini rəhbər tutaraq,

Tərəflərin əmək, məşğulluq və sosial müdafiə sahəsində uzunmüddətli və sabit əsasda bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduqlarını nəzərə alaraq,

Tərəflər arasında əməkdaşlıq və təcrübə mübadiləsinin hər iki dövlətin əmək, məşğulluq və sosial müdafiə sahəsində səmərəli inkişafına yardım edəcəyini qəbul edərək,

açıqlıq, şəffaflıq və Tərəflərin maraqlarına qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq,

beynəlxalq öhdəliklərə və dövlətlərinin milli qanunvericiliyinə riayət edərək öz səlahiyyətləri daxilində fəaliyyət göstərərək, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflərin bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlığının məqsədi aşağıdakı sahələr üzrə qarşılıqlı fəaliyyətin inkişafına yardım etməkdir:

əhalinin məşğulluğuna yardım;

əməyin ödənilməsi, şəraiti və mühafizəsi;

əməyin təftişi;

pensiya təminatı;

sosial xidmət və sosial yardım;

əlilliyi olan şəxslərin hüquqlarının həyata keçirilməsinin təmin edilməsi;

uşaqlı ailələrə sosial dəstək;

sosial tərəfdaşlıq;

əmək qanunvericiliyi və əhalinin sosial müdafiəsi məsələlərini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi.

**Maddə 2**

Bu Anlaşma Memorandumunun tətbiqi çərçivəsində əməkdaşlıq aşağıdakı şəkildə həyata keçiriləcəkdir:

normativ hüquqi aktlar, digər açıq sənədlər və qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi;

qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi məqsədi ilə birgə görüş və məsləhətləşmələrin təşkili və keçirilməsi;

digər Tərəfin nümayəndələrinin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsinə həsr olunaraq təşkil edilən və keçirilən tədbirlərdə (konfranslar, seminarlar, dəyirmi masalar və s.) iştirakı üçün dəvət edilməsi;

Tərəflərin maraqlarına cavab verən birgə tədbir və layihələrdə iştirak;

Tərəflərin razılaşdığı digər əməkdaşlıq formaları.

**Maddə 3**

Bu Anlaşma Memorandumunda nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi Tərəflərin hər il bu məqsədlər üçün dövlət (respublika) büdcəsində nəzərdə tutulmuş vəsaitləri daxilində və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına həyata keçirilir.

**Maddə 4**

Bu Anlaşma Memorandumu çərçivəsində qarşılıqlı fəaliyyət zamanı Tərəflərin məlumat mübadiləsi rus dilində həyata keçirilir.

Bu Anlaşma Memorandumu beynəlxalq hüquq normaları və Tərəflərin milli qanunvericiliyi ilə istifadəsi məhdudlaşdırılmış məlumat mübadiləsini nəzərdə tutmur.

**Maddə 5**

Bu Anlaşma Memorandumunun tətbiqi zamanı yaranan fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

**Maddə 6**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna onun ayrılmaz tərkib hissəsi olan və bu Anlaşma Memorandumunun 8-ci maddəsi ilə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Anlaşma Memorandumu Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir göstərmir.

**Maddə 8**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 3 (üç) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə

digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti 3 (üç) illik müddətlərə uzadılır.

Minsk şəhərində 19 noyabr 2018-ci il tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir.

Bu Anlaşma Memorandumunun təfsiri ilə bağlı fikir ayrılıqları yarandıqda Tərəflər rus dilindəki mətnə müraciət edəcəklər.

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi adından**
*(imza)*

**Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi adından**
*(imza)*